## QƏRBİ KASPİ UNİVERSİTETİ

# KEYFİYYƏTƏ NƏZARƏT KOMİSSİYASININ
# İLLİK HESABATI

QKU-nun Elmi Şurasının
14.09.2023-cü il tarixli, 01 №-li
protokolu ilə təsdiq edilmişdir

BAKI - 2023

**Keyfiyyətə Nəzarət Komissiyasının 2022-2023-cü ildə görülən işlərin**

**HESABATI**

Bu gün ölkəmizdə davamlı inkişafa nail olmaq üçün önəmli və vacib addımlar atılmaqdadır. Burada məqsəd Azərbaycan vətəndaşının sosial-iqtisadi həyatında baş verən müsbət dəyişikliklərə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün isə, insan kapitalının inkişafını, şəxslərin bilik və bacarıqlara yiyələnməsi üçün çalışılır. Həmçinin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşmaq, iqtisadiyyatı inkişaf etdirmək, əhalinin həyat səviyyəsini yüksəldilməsi prosesində təhsil sahəsində yaranan yeniliklərdən və innovasiyalardan istifadə vacib sayılır. Bu məsələlərin həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" yaradılmışdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, insan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm işlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini özündə əks etdirir. Strategiyada təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələblərdə təhsil sistemi anlayışına baxışı da yeniləmişdir. Ona görə də, insan fəaliyyətinin bütün sahələrində olduğu kimi təhsildə də keyfiyyət məsələsini yüksəltmək ön plana çıxır.

Bu baxımdan Qərbi Kaspi Universitetində də tələbələrə keyfiyyətli təhsilin verilməsi həmişə əsas meyar olmuşdur. Universitetdə təhsilin keyfiyyətinə nəzarət məqsədilə "Keyfiyyətə Nəzarət Komissiyası" yaradılımşdır. Qərbi Kaspi Universitetinin Elmi Şurasının 12.10.2022-ci il tarixli əmrlə yaradılan Keyfiyyətə Nəzarət Komissiyasının Əsasnaməsi və Strukturu müəyyən edilmiş və Keyfiyyətə Nəzarət Komissiyanın fəaliyyət planı tərtib edilmiş və iş bölgüsü aparılmışdır. (24. 10. 2022-ci il,pr.№1). 2022-2023-cü il ərzində universitetin strateji fəaliyyət planına əsaslanaraq və onu əldə əsas tutaraq qarşısına qoyduğu məsələlərin həllinə calışmışdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə cari tədris ilində imtahan nəticələri təhlil edilərək müvafiq hesabatlar hazırlanmışdır. QKU-da imtahanlar

yazılı (klassik formada), şifahi və test formasında təşkil edilmişdir. Bakalavriat səviyyəsində əyani və qiyabi təhsil alan tələbələrə, magistratura səviyyəsində isə əyani təhsil alan tələbələrə imtahanlar təşkil olunmuşdur. Sessiyanın nəticələrinə görə bakalavriat səviyyəsində 5 fakültə üzrə 2408 tələbədən 2327 nəfər imtahanlarda iştirak edib. 81 nəfər müxtəlif səbəblərdən imtahan sessiyasında iştirak etməyib.

İmtahanda iştirak edən tələbərlərdən 1613 nəfəri müvəffəq qiymət alıb (o cümlədən əla – 13 nəfər, əla, çox yaxşı, yaxşı (A,B,C) – 267 nəfər, qarışıq qiymət alanlar (A,B,C,D,E) – 1335 nəfər). Universitet üzrə akademik borcu qalan tələbələrin sayı 714 nəfərdir. Bu tədris ilinin qış imtahan sessiyasında tələbələrin müvəffəqiyyət göstəricisi – 69%, Keyfiyyət göstəricisi isə - 17%dir. 2021/2022- (müvəffəqici tədris ilinin payız imtahan sessiyası ilə müqayisə etdikdə müvəffəqiyyət göstəricilərinə görə artım dinamikası görünür. Keyfiyyət göstəricilərinin artımı isə çox cüzidir.




Magistratura səviyyəsində təhsil alan 239 tələbədən imtahan sessiyasında 237 nəfər iştirak edib. Onlardan 195 nəfəri sessiyanı müvəffəqiyyətlə başa vurublar (o cümlədən əlaçıların sayı 20 nəfərdir, əla yaxşı alanlar 86, qarışıq qiymət alanlar isə 89 nəfərdir). Akademik borcu qalan təlbələrin sayı 42 nəfərdir. Sessiya üzrə magistrantların müvəffəqiyyət göstəriciləri 82%, keyfiyyət göstəricisi isə 44%-dir. Keçən tədris ili ilə müqayisə etdikdə magistratura səviyyəsi üzrə tələbələrin müvəffəqiyyəti artım dinamikası göstırsdə də, keyfiyyət göstəricilərində geriləmə

var.




2022/2023-cü tədris ilinin yaz imtahan sessiyasında universitet üzrə 1800 tələbədən 16945 tələbə iştirak edib. Onlardan 6 nəfəri əla qiymət, 153 nəfər əla yaxşı, 1161 nəfəri qarışıq qiymət olmaqla cəmi 1329 tələbə müvəffəq qiymət alıb. 365 nəfərin akademik borcu qalıb. 106 nəfər isə imtahan sessiyasında iştirak etməyib. Universitet üzrə müvəffəqiyyət göstəricisi 78%, keyfiyyət göstəricisi isə 12 % təşkil edir. Keçən tədris ili ilə müqayisə diaqramda qeyd olunub, artım görünür.




Magistratura səviyyəsində təhsil alan 139 magistrantldan 136 nəfəri sessiyada iştirak edib. Onlardan 114 nəfəri müvəffəqiyyətlə sesiyanı başa vurublar, 22 nəfərin akademik borcu qalıb. 3 nəfər imtahan sessiyasında iştirak etməyib. Magistrantların müvəffəqiyyət göstəricisi 84%, keyfiyyət göstəricisi 38% dir.




Keçən tədris ilinin yaz sessiyası ilə müqayisə etdikdə magistratura səviyyəsi üzrə dinamikada geriləmə görünür.

Tədris ilinin ümumi dinamikasına baxıldıqda müvəffəqiyyət göstəricisində artım görünsə də, keyfiyyət göstəricisində geriləmə görünür.

Tədris prosesinin müasir tələblərə uyğun, interaktiv metodlarla təşkilinin həyata keçirilməsinə nəzarət məqsədi ilə Keyfiyyətin Təminatı Mərkəzi ilə birgə "Təlim və tədrisin monitorinqi" və "Professor-müəllim heyətinin peşə fəaliyyətinin qiymətləndirilməsi" üçün təlimatlar, tədris prosesində təlim metodlarının tətbiqinə dair Metodiki Tövsiyələr işlənib hazırlanmış və müvafiq təlimlər keçirilmişdir. Sənəd EŞ-nın 12.10.2022-ci il tarixli, 02 saylı protokolu ilə təsdiq edilmişdir.

Keyfiyyətin Təminatı Mərkəzi, Keyfiyyətə Nəzarət komissiyasının iştirakıilə 20.11.2022-ci il tarixdə universitetin müəllimləri üçün təlim keçirmişdir. Təlim "Tələbə yönümlü təhsil" mövzusuna həsr olunub. Nəzərdən keçirilən mövzuları daha praktik şəkildə izah etmək üçün iştirakçılar arasında müxtəlif oyunlar oynanılıb.

https://wcu.edu.az/az/news/muellimlerimiz-uchun-telim-kechirilib

Təhsilin keyfiyyətinin təmin edilməsi məsələlərində universitetin struktur bölmələri ilə qarşılıqlı əlaqənin yaradılması məsələsinə də diqqət yetirilmişdir. Belə ki, dekanlıqlar və kafedralarla əməkdaşlıq edərək Keyfiyyətin Təminatı Mərkəzi və Tədris Metodiki Şura ilə birgə Elm və Təhsil Nazirliyinə təsdiq olunmaq üçün göndərilən fənn proqramlarının cari təhsil proqramına uyğunluğunun yoxlanışı aparılmışdır. Yoxlamanın nəticələri dekanlıga və kafedralara bildirılmışdir.

Universitetdə təhsilin keyfiyyəti ilə bağlı aşkar edilən problemlərin aradan qaldırılması üçün praktiki həllərin işlənib hazırlanması məqsədilə Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi qrifli vahid formalı fənn proqramlarının hazırlanması və Universitet üzrə sillabusların vahid qaydaya salınması işləri aparılmaga başlanmışdır. Həmçinin silabusların qəbul olunmuş beynəlxalq standartlara uyğunlaşdırılması qarşıya məqsəd kimi qoyulmuşdur..

Təhsildə keyfiyyətin yüsəldilməsinə nail olmaq üçün tələbələr arasında sorğuların keçirilməsi vacib şərtdir. Bu məqsədlə tələbələr arasında məmnunluq sorğularının keçirilməsi təmin edilmişdir. Sorğular Tələbə Məlumat Mərkəzi tərəfindən online platformada, anonimlik təmin edilməklə keçirilmişdir. Statistik hesabat hazırlanmış və nəticələr təhlil edilərək rəhbərliyə, fakültə və kafedralara təqdim edilmişdir. Komissiyanın üzvləri bu sorguların təşkilinə və aparılmasına nəzarət etmişdir.

Eyni zamanda Keyfiyyətin Təminatı Mərkəzi və Keyfiyyətə Nəzarət Komissiyası tərəfindən Universitetin professor-müəllim heyəti arasında da online platformada sorğuların keçirilməsi təmin edilmişdir. Nəticələr təhlil edilərək müvafiq kafedralara bildirişlər edilmişdir.

Universitetdə professor-müəllim heyətinin e-jurnaldan səmərəli istifadəsini təmin etmək məqsədilə təlim keçirilmiş və öyrədici videoçarx universitetin saytında paylaşılmışdır.

Keyfiyyətin Təminatı Mərkəzinin rəhbərinin 2022/2023-cü tədris ilinin I yarısı üçün hesabatında aparılan SWOT təhlilin nəticələri Komissiyanın iclasında müzakirə edilmişdir. (05.12. 2022-ci il.Pr.3) Sənəddə Universitetin güclü tərəfləri qeyd edilmişdir:

- Universitetin dünyanın müxtəlif aparıcı ali təhsil ocaqları, həmçinin beynəlxalq şirkət və qurumları ilə əməkdaşlığının olması;
- Təhsil və tədrislə bağlı tətbiq olunan standart və meyarlar, o cümlədən tədrisin və imtahanların təşkili və keçirilməsi və biliklərin qiymətləndirilməsi prosesləri dünyanın aparıcı universitetlərinin təcrübələrinə uyğun təşkil olunması;

• Tələbələrin və akademik heyətin mübadilə proqramlarında iştirakının təşviqi və həyata keçirilməsi;

• Tələbələrin tədqiqat işləri ilə məşğul olmaları üçün infrastrukturun (beynəlxalq standartlara cavab verən laboratoriyaların, texnoparkın və s.) mövcudluğu;

• Tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsinin təşviqi;

• Universitetin elektron kitabxanasınn mövcud olması. O cümlədən 2500 – dən çox tam mətnli kitab və broşuranı özündə birləşdirirərək informasiya resuslarına çıxışla təmin olunması;

• Tələbələrin auditoriyadankınar fəaliyyətlə məşğul olmaları üçün təşviq edilməsi.

Həmçinin zəif tərəflər göstərilmişdir:

• Kadrların sayının kifayət qədər olmaması səbəbindən kənardan saat hesabı müəllmlərin cəlb edilməsi ;

• Vakansiyada qalan fənlərin mövcud olması;

• Tələbələrin davamiyyət göstəricilərinə nəzarətin zəif olması;

• Müəllimlərin şəxsi kabinetinə elektron materialların kifayət qədər yüklənməməsi;

• Tələbələrin kitabxanadan istifadəsinin yetərli qədər olmaması;

• Azsaylı qrupların mövcud olması.

Məhz bu təhlillər Keyfiyyətin Təminatı Mərkəzi və Keyfiyyətə Nəzarət Komissiyasının aşkara çıxardıgı məslələrdir ki, bunları əldə əsas tutaraq və Universitetin Strateji İnkişaf planına paralel olaraq öz fəaliyyətimizi qurmaga imkan yaradır. Nöqsanların aradan qaldırması üçün 2023-2024-cü tədris ilinin fəaliyyət palanında müvafiq tədbirlərin aparılması nəzərdə tutulur.

QKU-da tədris olunan təhsil proqramlarının, əmək bazarının, cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti, kadr hazırlığı aparılan bakalavriat, magistratura və doktorantura üzrə bütün ixtisaslar Azərbaycan RespublikasıNAzirlər Kabinetinin 2010-cu il 23 Aprel tarixli, 75 saylı qərarına əsasən "Ali təhsil pilləsinin Dövlət Standartı və Proqramına" uyğun həyata keçirilir. Belə ki, təhsil proqramları

hazırlanarkən əmək bazarının nümayəndələrinin elm və Təhsil nazirliyivə nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alənməşdır. əmək bazarının tələblərinə uyğun yeni nəsil təhsil proqramlarının hazırlanmasında QKU beynəlxaql təcrübələrdən də istifadə edir. Bir sıra proqram və ixtisaslarda tədris olunan praktik fənlərin əmək bazarı nümayəndələri tərəfindən tədris edilməsi təhsilalanların peşə kompetensiyalarının əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğunu təmin edir.

***Elmi-tədqiqat sahəsi üzrə aparılan fəaliyyət:***

Qərbi Kaspi Universiteti təhsil universiteti olmaqla yanaşı tədqiqat universitetinə də çevrilə bilmək üçün qarşısına xüsusi məqsədlər və hədəflər qoymuşdur. Universitetin beynəlxalq tələblərə cavab verən elmi-tədqiqat mühitinin formalaşdırılması istiqamətində qarşıya qoyulan hədəflərə çatmaq üçün Elm və İnnovasiyalar şöbəsinin apardığı fəaliyyətlər izlənmişdir.

Universitetin Starteji inkişaf planına əsasən şöbənin qarşısına qoyulan hədəflərin yerinə yetirilməsi səviyyəsi cari hesabatda əks olunur.

1. Son bir təqvim ili ərzində beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda (Web of Science, SCOPUS) nəşr olunan məqalələrin sayının artırılması qarşıya qoyulan hədəflərdəndir. Bu sahədə 2023 – cü ildə Universitet üzrə 61 məqalə Scopus bazada, 28 məqalə isə WoS bazada indeksləşib.

**Scopus**:
ttps://www.scopus.com/results/results.uri?sort=plff&src=s&sid=3eb76ab4df2c92c719229028fd7c1000&sot=aff&sdt=a&sl=15&s=AF-ID%2860190589%29&origin=AffiliationProfile&editSaveSearch=&txGid=b787bfe2b385ef0a833e2ee3ad713220

**WoS:** https://www.webofscience.com/wos/woscc/summary/6d1afb0f-e29d-4f27-98f5-5e62129cb7f6-aa332542/relevance/1

2. Scopus, WEB of Science, Tomson Reutor kimi elmi jurnallara daxil olmaq

Qərbi Kaspi Universitetinin “Təbiət elmləri” kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Natəvan Kərəmovanın xarici həmmüəlliflərlə birgə “İmpact of

infodemic on organizational performance” kitabında elmi əsəri nəşr olunub. “Pandemic Stress Caused by the Infodemic Among Youngsters and the Elderly Population” adlı elmi əsərdə pandemik stresin psixoloji göstəricilərə təsirini əks etdirən təcrübələrin nəticələri əks olunub.

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-muelliminin-xarici-hemmuellifler

3. Elmi və elmi-kütləvi onlayn jurnalların təsis edilməsi, beynəlxalq impakt faktorlu indekslərin alınması və təbliği ilə də bağlı işlər görülür.

*3.1.* *Reconstructing the Past: Journal of Historical Studies* (https://jhs.wcu.edu.az/) jurnalı Qərbi Kaspi Universiteti tərəfindən rüblük olaraq ingilis dilində nəşr olunur.

*3.2.* Journal of Endemism: biodiversity & environment (https://ebe.wcu.edu.az/az) jurnalı rüblük olaraq nəşr olunur. Jurnalın missiyası taksonomik, ekoloji və biocoğrafi tədqiqatların genişləndirilməsi vasitəsilə ilə biomüxtəliflik fənlərinin sosial aktuallığına təşviq etməkdir. Girişi açıq olan bu jurnalın əsası Qərbi Kaspi Universiteti tərəfindən 2023-cü ildə qoyulmuş (e-ISSN 3005-9070, p-ISSN 3005-9062) və geniş mövzuları əhatə edir. biomüxtəlifliyin tədqiqinin müxtəlif sahələrindən, həyat elmləri, geoelmlər, molekulyar biologiya və genetika, vəhşi təbiət ekologiyası və biologiyasından biomüxtəlifliyin qorunmasının müxtəlif aspektlərini əhatə edir.

*3.3.* Elmi Xəbərlər jurnalının 2 seriyası Universitet tərəfindən nəşr olunur:

- İctimai və Texniki elmlər seriyası
- (https://journal.wcu.edu.az/az/expeditions/elmi-xeberler-ictimai-ve-texniki-elmler-seriyasi)
- Humanitar və Sosial-siyasi elmlər seriyası
- (https://journal.wcu.edu.az/az/expeditions/elmi-xeberler-humanitar-ve-sosialsiyasi-elmler-seriyasi) Hər iki jurnal ictimaiyyət üçün açıqdır.

Gənc Alimlər birliyinin yaradılmasır Universitetin öz qarşısına qoyduğu hədəflərindəndir. Bu istiqamətdə Universitetdə atılan addımlardan biri də Tələbə Elmi Cəmiyyətinin formalaşdırılmasıdır.

Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti haqqında Qərbi Kaspi Universitetində bütün tələbə heyətini məlumatlandırmaq üçün hər fakültə üzrə nümayəndələr seçilmişdir. Onlarla mövcud şəraitlə bağlı olaraq, kiçik iclaslar keçiril və həm yeni kursların, həm də yuxarı kursların məlumatlandırılması təmin edilir.

Bu sahədə tələbələr son dövrdə yüksək fəallıq nümayiş etdiriblər. Elm və innovasiyalar şöbəsinin təqdim etdiyi hesabatda qeyd olunur ki, TEC-in işindən maraqlı tədqiqat layihələri, uğurlu hadisələr və nəzərəçarpacaq nəticələr görünür. Tələbə Elmi Cəmiyyətinin məqsədi Universitetin Azərbaycqanın ilk özəl tədqiqat universiteti olmasına nail olmaqdır. Gənclər təkcə TEC-in çərçivəsində deyil, digər elmi cəmiyyətlər, laboratoriyalar və universitet strukturları ilə əməkdaşlıq edirlər.

Universitetin hədəfi universitet tələbələrinin tədqiqat işlərinə təşviq edilməsi, tələbə elmi cəmiyyətinin təşkilatlanması, tələbələrdən ibarət araşdırma qrupların yaradılması və digər universitetlərin tələbə elmi cəmiyyətləri ilə əməkdaşlıqların qurulmasıdır.

Dissertasiyaların plagiat yoxlamasından keçirilməsi mexanizmi 30 mart 2018 ci i tarixli, 03 nomrəli protokolu ilə təsdiq edilmiş prosedur qaydalar əsasında həyata keçirilir

*Gənc elmi tədqiqatçılar, magistrantlarla aparılan işlərdə* universitet ictimaiyyətinin müxtəlifliyinə və inkişafına mühüm töhfə verəcəyinə inandırıcı addımlar atılır. Universitet tələbələrini yeni nailiyyətlərə sövq edə biləcək müxtəlif ideya və təşəbbüsləri nəzərdən keçirir.

Universitet tərəfindən gənc tədqiqatçıların fikir mübadiləsi aparması, bir-birindən öyrənmə və yaradıcı təşəbbüsləri birgə həyata keçirə bilmələri təşviq olunur. Gənc tədqiqatçıların və magistrların təcrübə və bilik mübadiləsi üçün əlverişli mühit yaradılır.

Universitet öz doktorant və magistrlarına təkcə tədqiqat layihələrində iştirak etmək imkanını deyil, həm də maarifləndirici fəaliyyətlər və təlimlər vasitəsilə bacarıq və biliklərini inkişaf etdirmək imkanı yaratmağa çalışır. Universitet bu istiqamətdə müxtəlif seminar, vebinar və konfranslar təşkil edir. Müxtəlif mövzularda mühazirələr öxumaqa üçün Universitet tərəfindən əcnəbi mütəxəssislər dəvət olunub

2022-ci ilin dekabrında 06 Qərbi Kaspi Universiteti Magistratura şöbəsi, Klinik psixologiya ixtisaslaşmasında təhsil alan II kurs magistrları üçün **"Somatik xəstəliklərin klinikasının psixoloji problemləri"** fənni çərçivəsində Vətən Müharibəsi iştirakçısı, endokrinoloq Fərhad Burzunun endokrinoloji və metabolik xəstəliklər haqqında mühazirəsi olub. Həmçinin fənn müəllimi Orxan Fərəcli ilə birgə həmin xəstəliklərin insan psixikasında yaratdığı problemlərdən paralel surətdə bəhs olunub. Mühazirəçilər sonda magistrları maraqlandıran müxtəlif sualları cavablandırıblar.

2022-ci il dekabrın 12-də Qərbi Kaspi Universitetində Beynəlxalq Valyuta Fondunun regional meneceri Selim Çakırın doktorant və magistrlarla görüş olub. S.Çakır iştirakçılara Fond, onun fəaliyyət istiqamətləri haqqında məlumat verib, BVF-də iş imkanları barədə danışıb. Daha sonra mütəxəssisin doktorant və magistrlarla intervyusu olub.

2022-ci il, dekabrın 28-də Qərbi Kaspi Universitetinin "Təbiət elmləri" kafedrasının müəllimi biologiya üzrə fəlsəfə doktoru Natavan Kərəmova və "Hüquq psixologiyası" ixtisası üzrə təhsil alan 2-ci kurs magistr tələbələri Əsəd Əsədzadə, Cavanşir Abbaszadə və Ayişə Şirinova Gürcüstanda təşkil olunmuş 26 ölkənin iştirak etdiyi **"Second International Conference Modern World Challenges: Regulating Human Rights, Social Security, and Welfare in Contemporary Multicultural World"** (28 dekabr 2022) adlı beynəlxalq konfransda iştirak ediblər.

Kərəmova N.Y., Şirinova A.Ə. "Pathopsychological Challenges in Adolescents" mövzusunda, Abbaszadə C.Z. "Factors Causing Delinquent Behavior of Adolescents" mövzusunda, Əsədzadə Ə.S. isə **"Bad Habits that Adolescents are Prone To"** mövzusunda məruzə ediblər.

2023-cü il aprelin 15-də Qərbi Kaspi Universitetinin Yüksək texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin tələbələri üçün Türkiyənin Nəcməddin Ərbakan Universiteti, Meram Tibb fakültəsinin Prof. Dr. Ercan Kuraрın "**Transgenesis və nüvə transferi**" vebinarı təşkil edilib. Vebinarda universitetin biologiya ixtisasında təhsil alan tələbələri, "Molekulyar biologiya" və "Genetika" ixtisasında təhsil alan magistrantları iştirak ediblər.

Qərbi Kaspi Universitetinin təşkilatçılığı ilə 05 may 2023-cü il tarixində Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş gənc tədqiqatçıların **"Tədris, öyrənmək və təhsil"** mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.

Bu tədris ilində Qərbi Kaspi Universitetinin dissertantı Vüqar Muxtarovun kitabı işıq üzü görüb. **"Hərbi psixologiya"** adlı dərs vəsaitində hərbi psixologiyanın obyekti, predmeti, vəzifələri, tədqiqat metodları, hərbi xidmət şəraitində psixi hadisələr, kollektiv və onun inkişaf mərhələləri, hərbi xidmət və idarəetmənin strukturu, hərbi fəaliyyətlərin psixoloji təminat elementləri, eləcə də dinc və müharibə dövrlərində psixoloji təminatın idarə olunması məsələləri şərh olunur. Dərs vəsaiti ali hərbi məktəblərin kursantları üçün nəzərdə tutulsa da, psixologiya sahəsində tədris alan bakalavr və magistrantlar, eləcə də hərbi psixologiya problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün faydalı ola bilər.

2023-cü il mayın 18-də Qərbi Kaspi Universitetinin tələbə və müəllimləri üçün **DAAD-nin** (Almaniyada təqaüdlü təhsil almaq imkanı yaradan akademik mübadilə proqramı) təqaüd proqramları ilə bağlı məlumat görüşü keçirilib. Sessiyanı DAAD-ın Tbilisi Regional ofisinin rəhbəri Gebhard Reull aparıb. Görüşdə DAAD proqramı haqqında məlumat verilib, DAAD-nin magistratura üçün təqaüdləri, alman yay dil kursu təqaüdləri, Almaniyada tədqiqat imkanları və s istiqamətlər barədə məlumat verilib.

Bundan əlavə xarici vətəndaşların Qərbi Kaspi Universitetində müxtəlif təhsil proqramları üzrə təhsil almağa cəlb edilməsi məqsədilə; beynəlxalq akademik mobillik, universitetə bakalavrların, magistrların, aspirantların qarşılıqlı faydalı mübadiləsi imkanının yaradılması və tədris üçün xarici ölkələrdən yüksək ixtisaslı

müəllimlərin cəlb edilməsi zəruridir. Beynəlxalq elmi fəaliyyəti təkmilləşdirmək ali təhsil müəssisələrinin şəbəkə qarşılıqlı fəaliyyətinin əhəmiyyətli dərəcədə artması ilə müşayiət olunan institusional tərəfdaşlıq; beynəlxalq təhsil proqramlarının tətbiqi, fənlərin ingilis dilində tədrisi; yataqxanada çoxdilli mühitin yaradılması, beynəlxalq universitet siyasətinin yaradılmasıdır.

Universitetin beynəlxalq tələblərə cavab verən elmi-tədqiqat mühitinin formalaşması ali təhsilin beynəlmiləlləşdirilməsinin əsas istiqamətlərindəndir. Bütün dünyada universitetlərin inkişafı üçün ən mühüm prioritetlərdən biri təhsil xidmətlərinin ixracının genişləndirilməsidir. Xarici tələbələrin təhsil almağa cəlb edilməsi təhsil müəssisələrini qlobal əmək bazarında mövcud tendensiyalar nəzərə alınmaqla mütəxəssis hazırlığı sistemində islahatlara, təhsilin keyfiyyətinin yüksəldilməsinə, innovativ prosesləri nəzərə alaraq yeni tədris proqramlarının hazırlanmasına stimullaşdırır.

Tələbələrlə auditoriyadan kənar işin keyfiyyətinin təhlili məqsədi ilə müntəzəm olaraq aparılan işlər haqda məlumatlar araşdırılır.

Universitetin auditoriyadankənar işlər şöbəsi ilə birgə Komissiyanın tələbələrdə sosial məsuliyyət hissinin artırılması istiqamətində onların könüllülük proqramlarına cəlb edilməsi nəticəsində ulu öndər H.Əliyevin anadan olmasının 100 illiyinə hısr olunmuş ağacəkmə aksiyası keçirilmişdir. Valideynlərin Universitet və cəmiyyət qarşınıdakı sosial məsuliyyətinin artırılması məqsədilə Dövlət Gənclər Siyasətinin həyata keçirilməsi çərçivəsində tələbələrin maraqlarını təmsil etmək və qorumaq ictimai, siyasi, mədəni, sosial və iqtisadi həyatda fəal iştiraklarını təmin etmək üçün Tələbə Elmi Cəmiyyəti yaranmışdır.

Təlim-tərbiyə işi üzrə fəaliyyət planının hazırlanması istiqamətində auditoriyadan kənar işlər şöbəsi, Tələbələrin Təcrübə və İnkişaf Mərkəzi və Komissiya tələbələrin istək və maraqlarına dair müxtəlif klublar təşkil olunmuş, idman və mədəniyyət tədbirləri keçirilmiş, müxtəlif debat klubları yaradılaraq sistemli bilik yarışmaları təşkil edilmiş, korporativ gəzintilər və ekskursiyalat təşkil olunmuşdur. Həmçinin “İdeyanı reallaşdır 2022” Grant müsabiqəsində universitetin

gənc müəllim və tələbələrinin qalib olduğu “Bir vərəq – Bir Yarpaq” layihəsi çərçivəsində Bakı şəhərinin orta məktəblərində və müxtəlif kurslarında təlimlər təşkil olunmuşdur.

04.12.2022-ci il tarixdə Tələbə Gənclər Təşkilatına və Tələbə Elmi Cəmiyyətinə seçkilər keçirilib və hər iki təşkilatın sədri və sədr müavini seçilib. Mütəmadi olaraq Komissiya gənc elmi tədqiqatçılar və magistrantlarla aparılan işin keyfiyyətinə nəzarət edir.

Universitetdə sosial-xidmət istiqamətində görülən işlərin müzakirəsi aparılmışdır. (12.04. 2022-ci il.Pr№4)

Mütəmadi olaraq Keyfiyyətə Nəzarət Komissiyasının üzvləri tələbələrin kitabxanaya, tibb kabinetinə, yeməkxanaya, insan resurslarına əlçatanlığının təmin edilməsinə nəzarəti həyata keçirir. Qeyd etmək lazımdır ki, 30.11.2022-ci il tarixdə tələbələr üçün kitabxana fondları ilə bağlı infossesiya keçirilmiçdir.

Təhsildə keyfiyyəti və beynəlxalq standartları təmin etmək üçün Universitet beynəlxalq əlaqələrini daim inkişaf etdirir və ölkəmizdə fəaliyyət göstərən tanınmış yerli və xarici şirkətlərlə yaxından əməkdaşlıq edir.

Keyfiyyətə Nəzarət Komissiyası 2023/2024-cü tədris ili üçün fəaliyyət planının SİP-in hədəflərinə uyğun tərtib etmişdir.

**Keyfiyyətə Nəzarət Komissiyanın sədri: Piri Axundov**

**2022/2023-cü tədris ilinin PAYIZ imtahan sessiyasının nəticələrinin təhlili.**

Artıq 2022/2023-cü tədris ilinin payız imtahan sessiyası yekunlaşmışdır. QKU-da imtahanlar yazılı (klassik formada), şifahi və test formasında təşkil edilmişdir. Bakalavriat səviyyəsində əyani və qiyabi təhsil alan tələbələrə, magistratura səviyyəsində isə əyani təhsil alan tələbələrə imtahanlar təşkil olunmuşdur. Sessiyanın nəticələrinə görə bakalavriat səviyyəsində 5 fakültə üzrə 2408 tələbədən 2327 nəfər imtahanlarda iştirak edib. 81 nəfər müxtəlif səbəblərdən imtahan sessiyasında iştirak etməyib.

İmtahanda iştirak edən tələbərlərdən 1613 nəfəri müvəffəq qiymət alıb (o cümlədən əla – 13 nəfər, əla, çox yaxşı, yaxşı (A,B,C) – 267 nəfər, qarışıq qiymət alanlar (A,B,C,D,E) – 1335 nəfər). Universitet üzrə akademik borcu qalan tələbələrin sayı 714 nəfərdir. Bu tədris ilinin qış imtahan sessiyasında tələbələrin müvəffəqiyyət göstəricisi – 69%, Keyfiyyət göstəricisi isə - 17%dir. 2021/2022-(müvəffəqici tədris ilinin payız imtahan sessiyası ilə müqayisə etdikdə müvəffəqiyyət göstəricilərinə görə artım dinamikası görünür. Keyfiyyət göstəricilərinin artımı isə çox cüzidir.




Magistratura səviyyəsində təhsil alan 239 tələbədən imtahan sessiyasında 237 nəfər iştirak edib. Onlardan 195 nəfəri sessiyanı müvəffəqiyyətlə başa vurublar (o cümlədən əlaçıların sayı 20 nəfərdir, əla yaxşı alanlar 86, qarışıq qiymət alanlar

isə 89 nəfərdir). Akademik borcu qalan təlbələrin sayı 42 nəfərdir. Sessiya üzrə magistrantların müvəffəqiyyət göstəriciləri 82%, keyfiyyət göstəricisi isə 44%-dir. Keçən tədris ili ilə müqayisə etdikdə magistratura səviyyəsi üzrə tələbələrin müvəffəqiyyəti artım dinamikası göstırsdə də, keyfiyyət göstəricilərində geriləmə var.




KNKomissiyasının üzvü: i.ü.f.d. Afaq Həsənova

**2022-2023-cü tədris ilinin YAZ sessiyasının nəticələrinin**
**TƏHLİLİ**

2022/2023-cü tədris ilinin yaz imtahan sessiyasında universitet üzrə 1800 tələbədən 16945 tələbə iştirak edib. Onlardan 6 nəfəri əla qiymət, 153 nəfər əla yaxşı, 1161 nəfəri qarışıq qiymət olmaqla cəmi 1329 tələbə müvəffəq qiymət alıb. 365 nəfərin akademik borcu qalıb. 106 nəfər isə imtahan sessiyasında iştirak etməyib. Universitet üzrə müvəffəqiyyət göstəricisi 78%, keyfiyyət göstəricisi isə 12 % təşkil edir. Keçən tədris ili ilə müqayisə diaqramda qeyd olunub, artım görünür.




Magistratura səviyyəsində təhsil alan 139 magistrantldan 136 nəfəri sessiyada iştirak edib. Onlardan 114 nəfəri müvəffəqiyyətlə sesiyanı başa vurublar, 22 nəfərin akademik borcu qalıb. 3 nəfər imtahan sessiyasında iştirak etməyib. Magistrantların müvəffəqiyyət göstəricisi 84%, keyfiyyət göstəricisi 38% dir.




Keçən tədris ilinin yaz sessiyası ilə müqayisə etdikdə magistratura səviyyəsi üzrə dinamikada geriləmə görünür.

Tədris ilinin ümumi dinamikasına baxıldıqda müvəffəqiyyət göstəricisində artım görünsə də, keyfiyyət göstəricisində geriləmə görünür.

**KNKomissiyasının üzvü:** **i.ü.f.d. Afaq Həsənova**